# ÖDƏNİŞ XİDMƏTİNƏ DAİR MÜQAVİLƏ

**Son dəfə yenilənib: 14.01.2026**

Bir tərəfdən Azərbaycan Respublikasının qanunvericiliyi, Mərkəzi Bank tərəfindən 16.05.2024-cü il tarixində verilmiş EPT-001 nömrəli lisenziya və öz Nizamnaməsi əsasında Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti ev 149 hüquqi ünvanında fəaliyyət göstərən "A-Solutions Elektron Pul Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Ödəniş xidməti təchizatçısı" və ya "Təchizatçı" adlandırılacaq) və digər tərəfdən İstifadəçi (bundan sonra "Ödəniş xidməti istifadəçisi", "İstifadəçi" və ya "Siz" adlandırılacaq), birlikdə Tərəflər adlandırılacaqlar, aşağıdakılar barədə razılığa gələrək Ödəniş xidmətinə dair müqavilə (bundan sonra "Müqavilə" adlandırılacaq) bağladılar:

## 1. Preambula

1.1. İstifadəçi bu Müqaviləni imzalamaqla/təsdiq etməklə Təchizatçı tərəfindən təqdim edilən Tətbiq vasitəsilə təqdim olunan ödəniş xidmətlərini istifadə etməyə başlayır. İstifadəçinin ödəniş xidmətlərindən istifadə etməzdən əvvəl, Müqaviləni diqqətlə oxuyub tanış olması zəruridir.

1.2. Ödəniş xidmətlərindən istifadə etməklə, Siz hazırkı Müqaviləni diqqətlə oxuduğunuzu və anladığınızı bildirir və buna dair üzərinizə öhdəliklər götürməyiniz barədə razılıq verirsiniz.

1.3. Bu Müqavilə "akart" mobil tətbiqindən istifadəni, ödəniş hesabının açılması, saxlanılması və bağlanılması, ödəniş əməliyyatlarının aparılması, elektron pulun emissiyası, istifadəsi, habelə "akart" mobil tətbiqi vasitəsilə təqdim edilən digər ödəniş xidmətlərindən və funksionallıqlardan istifadə qaydalarını tənzimləyir.

1.4. "Akart" mobil tətbiqi, o cümlədən onun proqram təminatı, interfeysi, dizaynı və digər komponentləri üzrə bütün mülkiyyət və əqli mülkiyyət hüquqları yalnız Təchizatçıya məxsusdur. İstifadəçi Tətbiqi heç bir şəkildə dəyişdirmək, surətini çıxarmaq, dekompilyasiya etmək, tərsinə mühəndislik aparmaq, yaymaq, üçüncü şəxslərə ötürmək və ya onun fəaliyyətinə müdaxilə etmək hüququna malik deyil. İstifadəçi Tətbiqdə tətbiq olunan hər hansı texniki mühafizə tədbirlərini, autentifikasiya sistemlərini və ya giriş məhdudiyyətlərini aşmaq və ya bu məqsədlə hərəkət etmək hüququna malik deyil. Tətbiqdən yalnız bu Müqavilədə müəyyən edilmiş məqsədlər çərçivəsində istifadə oluna bilər.

1.5. Bu Müqavilənin müvafiq bəndlərinə xələl gətirmədən, Təchizatçı İstifadəçiyə Müqavilənin 2.11-ci bəndində sadalanan Ödəniş xidmətlərini göstərə bilər.

1.6. Ödəniş xidmətlərindən hər birinin Təchizatçı tərəfindən təqdim olunması üçün bu Müqavilədən başqa İstifadəçi həmçinin Tətbiqdə və Saytda əks olunan şərtləri (müddətləri, komissiyaları, digər xərcləri) nəzərə almalıdır.

1.7. İstifadəçi qəbul edir və təsdiq edir ki, bu Müqavilədə qeyd olunmuş ödəniş əməliyyatlarının həyata keçirilməsi "akart" mobil tətbiqinin funksionallıqlarından və onun vasitəsilə göstərilən xidmətlərdən asılıdır. Əgər tətbiq müəyyən ödəniş əməliyyatını (məsələn, birbaşa debitləşmə) dəstəkləmirsə, bu Müqavilədə həmin növ əməliyyat üzrə nəzərdə tutulmuş müddəalar tətbiq edilmir. Ödəniş xidməti təchizatçısı heç bir halda müəyyən ödəniş əməliyyatını həyata keçirmək üçün funksionallıq təqdim etməyi öhdəsinə götürmür.

1.8. Bu Müqavilə çərçivəsində İstifadəçinin Təchizatçıdan aldığı ödəniş xidmətlərinə dair Tətbiqdə/və və ya Saytda əks olunan şərtlər bu Müqavilənin ayrılmaz hissəsini təşkil edir.

1.9. Bu Müqavilə üzrə xidmətlər yetkinlik yaşına çatmayan şəxslərə təqdim edilmir.

## 2. Müqavilədə istifadə olunan anlayışlar

2.1. **akart** - Ödəniş xidməti təchizatçısı tərəfindən təqdim olunan ödəniş aləti;

2.2. **Cihaz** – Tətbiqin yükləndiyi və İstifadəçinin sahibliyində olan cihaz və ya smartfon;

2.3. **Elektron pul** – qəbul edilən pul vəsaiti məbləğində akart vasitəsilə Ödəniş xidməti istifadəçisinin sərəncamına verilən, elektron formada saxlanılan, ödəniş əməliyyatlarının həyata keçirilməsinə imkan verən və elektron pulun emitenti ilə yanaşı üçüncü şəxslər tərəfindən də ödəniş üçün qəbul edilən vəsait;

2.4. **Elektron pulun emitenti** (Emitent) – elektron pulun emissiyasını həyata keçirən şəxs, bu Müqavilənin məqsədləri üçün "A-Solutions Elektron Pul Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti;

2.5. **Elektron pul təşkilatı** – qanunla müəyyən olunmuş qaydada aldığı lisenziya əsasında elektron pulu emissiya və elektron pul ilə əlaqəli ödəniş əməliyyatlarını icra edən, eyni zamanda lisenziyasında nəzərdə tutulduğu halda digər ödəniş xidmətlərini həyata keçirmək hüququ olan hüquqi şəxs, bu Müqavilənin məqsədləri üçün "A-Solutions Elektron Pul Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti;

2.6. **Əməliyyat günü** – Ödəniş xidməti təchizatçısının ödəniş sərəncamlarının qəbulu və ödəniş əməliyyatlarının aparılması üçün müəyyən etdiyi vaxt;

2.7. **Fərdiləşdirilmiş təhlükəsizlik məlumatları** – autentifikasiya məqsədilə Ödəniş xidməti təchizatçısı tərəfindən Ödəniş xidməti istifadəçisinə təqdim edilən fərdiləşdirilmiş məlumatlar;

2.8. **Gücləndirilmiş müştəri autentifikasiyası** – autentifikasiya məlumatlarının məxfiliyini qorumaq üçün hazırlanmış və birinin pozulması ilə digərlərinin etibarlılığını istisna etməyən, yalnız İstifadəçinin bildiyi, İstifadəçiyə məxsus olan və İstifadəçinin sahib olduğu elementlərdən iki və ya daha çoxunun istifadəsinə əsaslanan autentifikasiya;

2.9. **Ödəniş hesabı** (Hesab) – ödəniş əməliyyatlarının aparılması üçün ödəniş xidməti istifadəçisinə açılan hesab;

2.10. **Ödəniş sərəncamı** – ödəniş əməliyyatının icrası üçün Ödəniş xidməti istifadəçisi tərəfindən Ödəniş xidməti təchizatçısına Tətbiq vasitəsilə verilən tapşırıq;

2.11. **Ödəniş xidməti** – Ödəniş xidməti təchizatçısı tərəfindən təqdim olunan (1) ödəniş hesabı üzrə pul vəsaitinin nağd formada mədaxili və (və ya) məxarici əməliyyatlarının aparılması; (2) kredit köçürməsi, birbaşa debitləşmə, ödəniş kartı və ya digər oxşar ödəniş alətləri ilə ödəniş əməliyyatlarının icrası; (3) ödəniş əməliyyatının ekvayrinqi, (4) pul köçürməsi; (5) elektron pulun emissiyası və elektron pul ilə ödəniş əməliyyatlarının icrası; (6) ödəniş əməliyyatlarının aparılması üçün vasitəçilik xidməti və (7) hesab üzrə məlumat xidməti nəzərdə tutulur;

2.12. **Ödəniş xidməti istifadəçisi** (“İstifadəçi” və ya “Siz”) – Tətbiqdə qeydiyyatdan keçərək və bu Müqaviləni təsdiq edərək ödəniş xidmətlərindən istifadə edən Azərbaycan Respublikasının vətəndaşı olan istənilən fiziki şəxs;

2.13. **Ödəniş xidməti təchizatçısı** (Təchizatçı) – Ödəniş xidməti istifadəçisinə ödəniş xidmətlərini göstərən şəxs, bu Müqavilənin məqsədləri üçün “A-Solutions Elektron Pul Təşkilatı” Məhdud Məsuliyyətli Cəmiyyəti;

2.14. **Ödəniş kartı** (bundan sonra - kart) – nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən fiziki və ya virtual ödəniş aləti. Bu müqavilənin məqsədləri üçün “akart” ödəniş kartı hesab olunur.

2.15. **OTP** (və ya OTP təsdiq) – İstifadəçinin Tətbiqdə qeydiyyatdan keçən zaman təqdim etdiyi mobil nömrəyə müvafiq xidmətlərin göstərilməsi və ya razılıqların verilməsi məqsədilə göndərilən və İstifadəçi tərəfindən tətbiq olunan birdəfəlik şifrələr;

2.16. **Analoq imza –** Təchizatçı ilə İstifadəçi arasında Müqavilələrin, sənədlərin, əlavələrin, razılaşmaların imzalanması üçün istifadə oluna bilən və İstifadəçinin şəxsi imzasına bərabər hesab olunan və kağız daşıyıcısı üzərində təqdim edilən imza ilə eyni hüquqi qüvvəyə malik imza (şifrə, OTP kod, bir kliklə təsdiq, gücləndirilmiş müştəri autentifikasiyası və s.)

2.17. **Bonus** - Ödəniş hesabı və ya ödəniş kartı üzrə tətbiq olunan müxtəlif bonus, kəşbək (“cashback”) və sair stimullaşdırıcı və ya təşviqedici kampaniyalar;

2.18. **Sayt** - https://akart.az internet səhifəsi;

2.19. **Tətbiq** - Ödəniş xidməti təchizatçısı tərəfindən təmin edilən “akart” mobil tətbiqi;

2.20. **Avtorizə etmə** – ödəniş əməliyyatının həyata keçirilməsi üzrə ödəniş xidməti istifadəçisinin ödəniş xidməti təchizatçısına verdiyi razılıq.

## 3. Tətbiqin modifikasiyası, ondan istifadə və məhdudiyyətlər

3.1. Sahib olduğunuz Cihaz serverə bağlandığı zaman bu Müqavilənin şərtlərinə uyğun olaraq Təchizatçı sizə 30 (gün) qabaqcadan dəyişiklik haqqında məlumat (bildiriş) verməklə, hazırkı Müqavilə şərtlərinə vaxtaşırı dəyişiklik edə və ya onu yeniləyə bilər. Hazırkı Müqaviləyə edilmiş dəyişikliklərdən sonra sizin Tətbiqə daxil olmağınız və ya ondan istifadə etməyiniz sözügedən dəyişikliklərlə razılaşaraq onları qəbul etdiyiniz və bu dəyişikliklərə riayət etməyə dair öz üzərinizə öhdəlik götürdüyünüzü ifadə edir.

3.2. Tətbiqin versiyası yeni funksiyaların və xidmətlərə dəstəyin əlavə edilməsi, mövcud səhvlərin aradan qaldırılması və təhlükəsizlik səviyyəsinin artırılması məqsədilə vaxtaşırı yenilənə bilər. Tətbiqin yeni versiyası istifadəyə buraxıldıqda, sizə bu barədə elektron qaydada məlumat veriləcək və Tətbiqin versiyasını yeniləmək istəyinizə dair sizə sorğu göndəriləcəkdir. Tətbiqin yenilənmiş versiyasını qəbul etmədiyiniz təqdirdə, müvafiq təlimatlara riayət etməklə, Tətbiqin və Ödəniş xidmətlərinin istifadəsinə xitam verməniz xahiş olunur. Tətbiqə dəyişiklik edildikdən sonra Tətbiqdən istifadə etdiyiniz təqdirdə, siz Tətbiqin yenilənmiş versiyasından istifadə etməyə və bu cür dəyişiklikləri qəbul etmək və onlara riayət etməklə bağlı öz üzərinizə öhdəlik götürmək üçün razılıq vermiş hesab edilirsiniz.

3.3. Təchizatçı, hazırkı Müqavilənin tələblərinə riayət edilməsi şərtilə Tətbiqdən qeyri-kommersiya məqsədilə (Məqsəd) istifadə edərək Ödəniş xidmətlərini yalnız şəxsən istifadə etmək üçün sizə səlahiyyət verir.

3.4. Tətbiq üzrə bütün mülkiyyət və əqli mülkiyyət hüquqları Təchizatçıya məxsusdur. Tətbiq sizə satılmır, Tətbiq üzərindən Ödəniş xidmətlərinin istifadəsi üçün sizə icazə verilir. İstifadəçi Tətbiqdən yalnız hazırkı Müqaviləyə müvafiq qaydada və Tətbiqdə qeyd olunan təlimatları yerinə yetirməklə istifadə edə bilər.

3.5. İcazənin hazırkı Müqavilədə göstərildiyi etibarlılıq müddəti Müqavilənin şərtlərinə dair İstifadəçinin razılıq bildirdiyi tarixdən etibarən başlayır və aşağıdakılardan hər hansı birinin ilk baş verdiyi tarixdə xitam verilir:

3.5.1. Təchizatçı tərəfindən Müqavilənin ləğv edilməsi (bu hal, səbəbi sizə açıqlanmadan baş verə bilər);
3.5.2. Ödəniş kartını emissiya edən bankın, səlahiyyətli dövlət orqanının və ya məhkəmənin qərarı ilə;
3.5.3. Qeydiyyatdan keçən zaman təqdim olunan məlumatların həqiqi sahibi tərəfindən daxil edilmədiyi, saxtalaşdırıldığı müəyyən olunduqda və ya təqdim olunmuş məlumatların tam və ya düzgün olmadığı aşkar olunduqda;
3.5.4. Müqaviləyə əlavə və dəyişikliklərin və ya Tətbiqin modifikasiyasının İstifadəçi tərəfinizdən qəbul edilməməsi;
3.5.5. Ödəniş hesabından Məqsəddən kənar, həmçinin qanunvericiliklə yol verilməyən fəaliyyətlə bağlı istifadə edilməsi halları müəyyən olunduqda;
3.5.6. Müqavilənin İstifadəçi tərəfindən ləğv edilməsi halında;
3.5.7. Müqavilədən irəli gələn digər hallarda.

3.6. Qüvvədə olan qanunvericiliklə aydın şəkildə yol verilən hallar istisna olmaqla, Siz: (1) Tətbiqi modifikasiya etməyəcəyinizə, uyğunlaşdırmayacağınıza, təkmilləşdirməyəcəyinizə, dəyişdirməyəcəyinizə, tərcümə etməyəcəyinizə və ya onun əsasında törəmə məhsul yaratmayacağınıza; (2) Tətbiqi və ya onun istənilən tərkib hissəsini və ya elementini Tətbiq ilə nəzərdə tutulmayan digər Tətbiq və ya proqram təminatı, məlumat bazası və ya xidmətlərlə birgə istifadə etməyəcəyinizə və ya birləşdirməyəcəyinizə; (3) Tətbiqi istənilən üçüncü tərəfə sizin adınızdan istifadə etməklə təqdim etməyəcəyinizə, məlumatlarınızı paylamayacağınıza, satmayacağınıza və ya digər şəkildə ötürməyəcəyinizə; (4) Tətbiqdən xidmət bürosu kimi istifadə etməyəcəyinizə, yaxud Tətbiqi hər hansı bir üçüncü tərəfə istifadə və ya icarəyə verməyəcəyinizə; (5) Tətbiqin texnologiyasını açmayacağınıza, mənbə kodunu araşdırmağa çalışmayacağınıza, təhlil etməyəcəyinizə və ya digər şəkildə Tətbiqin mənbə kodunun və ya strukturunun əldə olunmasına, yaxud Tətbiqin şifrəsinin açılmasına cəhd göstərməyəcəyinizə; (6) Tətbiqin işinə istənilən şəkildə müdaxilə etməyəcəyinizə; (7) Tətbiqə girişi tənzimləyən və ya nəzarət edən hissədə istənilən elektron müdafiə tədbirlərindən boyun qaçırmayacağınıza və ya boyun qaçırmağa cəhd etməyəcəyinizə; (8) bilavasitə bizim tərəfimizdən öncədən verilmiş yazılı razılıq olmadan Tətbiqin aşkar edilməsi, indeksləşdirilməsi, axtarılması və məlumat toplanılması, yaxud istənilən şəkildə araşdırılması üçün və yaxud Tətbiqin naviqasiya strukturunun və ya təqdimatının təkrar yaradılması və ya bunlardan yan keçilməsi üçün hər hansı bir robotdan, spayderdən, sayt axtarış/aşkarlama Tətbiqlərindən, yaxud digər mexaniki və ya avtomatik qurğulardan istifadə etməyəcəyinizə; (10) Tətbiqi heç bir kommersiya məqsədləri üçün istifadə etməyəcəyinizə; yaxud (11) Tətbiqə çıxışla və ya onun istifadəsilə bağlı bütün qüvvədə olan qanunvericiliyin, qayda və təlimatların müddəalarını pozmayacağınıza və üçüncü tərəflərin də burada sadalan şərtləri pozmasına yol verməyəcəyinizə dair razılıq bildirirsiniz.
3.7. Siz Tətbiqə “start” verə biləcək, Tətbiq vasitəsilə “start” veriləcək və ya istənilən digər şəkildə Tətbiqlə inteqrasiya edilmiş heç bir proqram təminatı və ya digər funksional imkanlar tərtib etməyəcəyinizə, yaymayacağınıza və ya satmayacağınıza razılıq verirsiniz. Sizin Tətbiqlə bağlı və ya Tətbiqdə qarşınıza çıxan müəllif hüquqlarına və ya digər əqli mülkiyyət hüquqlarına dair istənilən bildirişi silməyə, dəyişməyə və ya gizlətməyə hüququnuz yoxdur.

## 4. Ödəniş hesabına dair şərtlər

4.1. Təchizatçı, İstifadəçinin müraciəti əsasında ona ödəniş xidmətlərindən istifadə etmək üçün qüvvədə olan hüquqi aktlarda nəzərdə tutulan qaydada məsafədən ödəniş hesabı aça bilər. İstifadəçi isə göstərilən xidmətlərin müqabilində Təchizatçının qüvvədə olan tariflərinə uyğun olaraq müvafiq xidmət haqqını ona ödəyir.
4.2. İstifadəçi öz hesabı üzərində müstəqil sərəncam verir və bu hüququ yalnız qanunvericiliklə və/və ya bu müqaviləylə müəyyən edilmiş əsaslarla və hallarda məhdudlaşdırıla bilər.
4.3. İstifadəçinin hesabındakı qalıqlara heç bir faiz ödənilmir.
*4.4. Ödəniş hesabından istifadə ilə bağlı Təchizatçının aşağıdakı vəzifələri var:*
4.4.1. İstifadəçiyə qanunvericiliyin və bu Müqavilənin tələblərinə uyğun olaraq hesab açmaq;
4.4.2. İstifadəçiyə bu Müqavilənin şərtlərinə uyğun olaraq xidmət göstərmək.
*4.5. Ödəniş hesabından istifadə ilə bağlı Təchizatçının aşağıdakı hüquqları var:*
4.5.1. İstifadəçinin Təchizatçı qarşısında borc və digər öhdəlikləri üzrə məbləğləri, əsassız varlanma nəticəsində yaranan öhdəliklər üzrə ödənilməli olan pul məbləğlərini, o cümlədən mövcud Tariflər əsasında İstifadəçiyə göstərilmiş hər bir xidmət üzrə müvafiq komissiya haqlarını İstifadəçinin hesablarından akseptsiz qaydada (Müştərinin sərəncamı olmadan) silmək;
4.5.2. İstifadəçidən Ödəniş xidmətləri üzrə mövcud öhdəliklərinin icrasını tələb etmək;
4.5.3. Hesabın açılması üçün zəruri olan sənədlərlə yanaşı, qeyri-sağlam xarakterli əməliyyatlardan, o cümlədən çirkli pulların yuyulmasında və terrorizmin maliyyələşdirilməsində istifadə cəhdlərindən qorunmaq məqsədilə İstifadəçidən qanunvericiliyə zidd olmayan digər sənədlərin də təqdim edilməsini tələb etmək;

4.5.4. Pul vəsaitlərinin təhlükəsizliyini təmin etmək üçün qanunvericiliyin tələblərinə uyğun olaraq öz seçdiyi üsul əsasında müvafiq tədbirlər görmək;
4.5.5. Aşağıdakı hallarda İstifadəçiyə məxsus hesaba xidmət göstərilməsini dayandırmaq və/və ya hesabı bağlamaq:
4.5.5.1. Hesabdan qanunsuz məqsədlər üçün istifadə edildikdə;
4.5.5.2. Hesabdan sahibkarlıq fəaliyyəti ilə bağlı istifadə edildikdə;
4.5.5.3. Hesab üzrə 1 (bir) il ərzində əməliyyat aparılmadıqda;
4.5.5.4. İstifadəçinin hesabında saxlanılan pul vəsaitinin məbləği 6 (altı) ay ərzində 10 manatdan az olduqda, bir şərtlə ki, belə məbləğ Təchizatçının bu barədə xəbərdarlıq etdiyi gündən 1 (bir) ay ərzində bərpa edilməmiş olsun;
4.5.5.5. İstifadəçi eyniləşdirilməsi və verifikasiyası ilə bağlı tələblər yerinə yetirilə bilinmədiyi, İstifadəçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr olduğu və/və ya İstifadəçinin hesab üzrə apardığı əməliyyatların mahiyyəti və məqsədi barədə məlumatlar əldə etmək mümkün olmadığı hallarda;
4.5.5.6. İstifadəçinin Təchizatçıya təqdim etdiyi sənəd və/və ya məlumatlarda qeyri-dürüst, təhrif olunmuş və ya ziddiyyətli məlumatlar aşkarlandıqda;
4.5.5.7. Müştəri uyğunluğu tədbirlərinin davamlı tətbiqi mümkün olmadıqda;
4.5.5.8. Bu müqavilə və/və ya qanunvericilikdə qeyd edilən sənədlər və/və ya məlumatlar İstifadəçi tərəfindən təqdim edilmədikdə;
4.5.5.9. İstifadəçinin hesabı üzrə həyata keçirilən əməliyyatların çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi ilə bağlı risklər yaratdığı, bu risklərin azaldılması üçün Təchizatçı tərəfindən tələb olunan məlumat və sənədlərin təqdim edilmədiyi və/və ya təqdim edilmiş məlumatların kifayət etmədiyi hallarda, eləcə də bu əməliyyatların məqsədi və həqiqi benefisiar(lar) barədə dolğun məlumatların əldə edilməsi mümkün olmadıqda;
4.5.5.10. İstifadəçinin ölümü və məhkəmə qaydasında ölmüş elan edilməsi barədə Təchizatçıya rəsmi yazılı məlumat təqdim olunduqda;
4.5.5.11. Bu müqavilə üzrə öhdəliklərin icrası İstifadəçi tərəfindən pozulduqda;
4.5.5.12.Qanunvericilik və/və ya bu müqavilədə nəzərdə tutulmuş digər hallarda.
4.5.6. Birtərəfli qaydada mövcud Tariflərdə və aparılan əməliyyatların qaydalarında dəyişiklik etmək;
4.5.7. Ödəniş hesabı və ödəniş kartı ilə bağlı gələcəkdə Müştərinin Təchizatçıda qeydiyyatda olan mobil nömrəsinə SMS vasitəsilə, "whatsapp" proqramı vasitəsilə, elektron poçt ünvanı vasitəsilə, tətbiq üzərindən və ya digər kommunikasiya vasitələrindən istifadə edilməklə istənilən məzmunda yeniliklər, dəyişikliklər, kampaniyalar, yeni məhsullar barədə məlumatlar və kredit barədə təkliflər, o cümlədən borc haqqında bildirişlər və s. göndərmək;
4.5.8. Aşağıdakı hallardan biri və ya bir neçəsi baş verdikdə İstifadəçinin hesablarından və digər bütün əsaslarla ona çatası vəsaitlərdən müvafiq vəsaiti akseptsiz qaydada silmək:
4.5.8.1. Üçüncü şəxslər və ya Təchizatçı tərəfindən yalnışlıqla mədaxil edilmiş pul vəsaitlərini;
4.5.8.2. Ödəniş terminalı, tətbiq və digər sistemlərdə, cihazlarda baş verən texniki nasazlıqlar nəticəsində İstifadəçinin hesabına mədaxil olmuş ona məxsus olmayan pul vəsaitlərini və ya həmin pul vəsaitləri məxaric edildiyi hallarda çıxarılmış vəsaitin məbləğində pul vəsaitini, overdraft nəticəsində yaranmış borcu;
4.5.8.3.Qanunvericiliklə nəzərdə tutulmuş icra sənədləri, məhkəmə qərarı, sərəncamlar (inkasso və s.) əsasında hesabdakı vəsaiti bloklaşdırmaq və/və ya akseptsiz qaydada silmək;
4.5.9. Ödəniş hesabının açılması üçün əvvəlcədən və ya ödəniş hesabı açıldıqdan sonra istənilən vaxt İstifadəçini autentifikasiya və ya gücləndirilmiş autentifikasiyası etmək. Autentifikasiya tələblərinin, hərəkətlərinin və metodologiyasının seçilməsi müvafiq qanunvericiliyin tələbləri nəzərə alınmaqla müstəsna olaraq Təchizatçının səlahiyyətindədir.
4.5.10. İstifadəçini məsafədən autentifikasiya etmək üçün ona fərdiləşdirilmiş təhlükəsizlik məlumatları təqdim etmək;
4.5.11. Müqavilənin digər bəndlərində və/və ya qanunvericilikdə nəzərdə tutulan digər hüquqlar.

*4.6. Ödəniş hesabından istifadə ilə bağlı İstifadəçinin aşağıdakı vəzifələri var:*
4.6.1. Ödəniş xidmətlərini bu Müqavilədə, Tətbiqdə və Saytda qeyd olunan şərtlərə uyğun olaraq həyata keçirmək;
4.6.2. Hesabın açılması üçün zəruri olan sənədləri, eləcə də, qeyri-sağlam xarakterli əməliyyatlardan, o cümlədən çirkli pulların yuyulmasında və terrorizmin maliyyələşdirilməsində istifadə cəhdlərindən qorunmaq məqsədilə Təchizatçı tərəfindən tələb olunan sənədləri Təchizatçıya təqdim etmək;
4.6.3. Hesabından sahibkarlıq (kommersiya) fəaliyyəti ilə bağlı istifadə etməmək;
4.6.4. Təchizatçı və ya digər üçüncü şəxslər tərəfindən hesaba səhvən köçürülmüş məbləğdən istifadə etməmək və Təchizatçını bu barədə dərhal məlumatlandırmaq, hesaba səhv daxil edilmiş pul vəsaitlərini ən geci növbəti əməliyyat günündən gec olmayaraq geri qaytarmaq;
4.6.5. Təchizatçıya düzgün və təhrif olunmamış məlumatlar təqdim etmək;

4.6.6. Vergi rezidentliyi ilə bağlı öhdəliklərə riayət etmək;
4.6.7. Kartı və ona aid olan məlumatları (PIN kod, CVV, kartın nömrəsi və s.) heç bir halda üçüncü şəxslərə verməmək və paylaşmamaq;
4.6.8. Bu Müqavilədən və qanunvericilikdən irəli gələn digər vəzifələr.

*4.7. Ödəniş hesabından istifadə ilə bağlı İstifadəçinin aşağıdakı hüquqları var:*
4.7.1. Qüvvədə olan qanunvericiliklə və bu müqaviləylə müəyyən olunmuş qaydada hesabında olan pul vəsaitinə müstəqil olaraq sərəncam vermək;
4.7.2. Ödəniş xidməti üzrə Təchizatçıya tapşırıq vermək, ondan məlumat əldə etmək.

**5. Elektron pula dair şərtlər**

5.1. Təchizatçı aşağıdakı qaydada və şərtlərlə elektron pulu emissiya edərək İstifadəçinin sərəncamına verir:
5.2. İstifadəçi müxtəlif kanallar vasitəsilə ödəniş hesabına elektron pul mədaxil edə (köçürə) bilər (ödəniş terminalı, “card-to-card” və sair);
5.3. Təchizatçı hesaba mədaxil edilən (və ya köçürülən) vəsaitləri dərhal (qeyri-sağlam xarakterli əməliyyatlardan, o cümlədən çirkli pulların yuyulmasında və terrorizmin maliyyələşdirilməsində istifadə cəhdlərindən qorunmaq məqsədilə qanunvericiliyə müvafiq olaraq əlavə sənədlərin təqdim olunmasının tələb olunduğu hallar istisna olmaqla) elektron pula çevirir və ödəniş hesabında və/və ya kartda yerləşdirir.
5.4. İstifadəçi hesabında olan elektron pul vasitəsilə müxtəlif əməliyyatlar icra edə bilir (Tətbiq daxili, e-com, cash in/cash out/sürətli pul köçürməsi və s. xidmətlər).
5.5. İstifadəçi elektron pulla hesab üzrə həm ölkə daxilində, həm də ölkə xaricində əməliyyatlar icra edə bilər.
5.6. Təchizatçı, İstifadəçisinin hesabındakı/kartındakı elektron pulu overdraft, hesabın hər hansı səbəbdən mənfi balansa enməsi (texniki overdraft), kreditləşmə, konvertasiya, məzənnə fərqi, komissiya, xidmət haqqı, cərimə (dəbbə pulu) və ya faizlərin ödənişi, dövlət büdcəsinə olan borc və ya məhkəmə qərarlarının icrasından irəli gələrək akseptsiz qaydada silə bilər.
5.7. Elektron pul “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununa əsasən əmanət hesab edilmir, sığortalanmır, habelə həmin vəsaitlərə faiz və ya digər formada gəlir ödənilmir.
5.8. Təchizatçı, texniki problem ilə əlaqədar, istifadə olunmuş lakin vəsaiti geri qaytarılmış Ödəniş xidməti üzrə həmin məbləği İstifadəçinin balansından akseptsiz tuta və ya overdraft tətbiq edilə bilər.
5.9. Təchizatçı, İstifadəçinin hesabına səhvən və ya əsassız olaraq daxil olmuş və ya köçürülmüş və ya sonradan səhvən və ya əsassız olaraq daxil olduğu və ya köçürüldüyü müəyyən edilmiş vəsaitləri akseptsiz qaydada İstifadəçinin hesab(lar)ından silə və ya yetərli məbləğdə vəsait olmadıqda overdraft yarada bilər.
5.10. İstifadəçi, hesabında/kartında yaranmış overdraftı overdraft yarandığı tarixdən 30 təqvim günü ərzində ödəmədiyi halda, Təchizatçı bu məbləğə həmin məbləğin 5%-i (beş faizi) həcmində cərimə (dəbbə pulu) hesablayaraq İstifadəçidən tələb edə bilər.
5.11. İstifadəçi, hesabında/kartında yaranmış overdraftı ödəmədiyi halda, həmin borc məbləği (cərimə faizi hesablanıbsa, həmin faizlə birlikdə) Təchizatçı tərəfindən məhkəmə qaydasında tələb oluna bilər.
5.12. Təchizatçı, elektron puldan istifadə ilə bağlı tariflərdə hər hansı əlavə və/və ya dəyişiklik olduqda qanunvericiliyə uyğun olaraq bu barədə Saytda və/və ya Tətbiqdə məlumat yerləşdirərək dəyişikliyi tətbiq edə bilər.
5.13. Təchizatçı, ödəniş xidməti üzrə “reverse” /”refund” əməliyyatları tətbiq edə bilər.
5.14. İstifadəçinin müraciətinə əsasən Təchizatçı “chargeback” müraciəti yarada bilər.
5.15. Elektron pulun istifadəsi ilə həyata keçirilən əməliyyatlar və elektron pulun qalıq dəyəri barədə məlumatlar İstifadəçiyə Tətbiq, həmçinin müəyyən dövrləri əhatə edən elektron çıxarış formasında təqdim edilə bilər.
5.16. Təchizatçı, İstifadəçinin hesabına daxil olan xarici valyutalı vəsaitləri öz məzənnəsinə uyğun konvertasiya edir.
5.17. Təchizatçı, İstifadəçinin hesabındakı elektron pulun təhlükəsizliyini qanunvericiliyə uyğun olaraq öz seçdiyi üsulla təmin edir.
5.18. Təchizatçı, İstifadəçinin sui-istifadəsi/fraud (dələduzluq) halları aşkar edildikdə ödəniş hesabını və/və ya əməliyyatları bloklayır.
5.19. Təchizatçı bu müqaviləyə uyğun olaraq birtərəfli qaydada mövcud tariflərdə və əməliyyatların aparılması qaydalarında dəyişiklik etmək və yeni tariflər (komissiyalar) müəyyən etmək hüququna malikdir. Tariflər Təchizatçının Saytında yerləşdirilir. İstifadəçi, mütəmadi olaraq Sayta daxil olub yeniliklərlə tanış olmağa məsuldur.

5.20. Təchizatçı, elektron pul üzrə əməliyyatlar zamanı qanunvericiliklə nəzərdə tutulmuş hallarda müvafiq nəzarət orqanlarına məlumat təqdim edə və hesabat verə bilər. İstifadəçi bu cür məlumatların ötürülməsinə və hesabat verilməsinə razılıq verir.

**6. Ödəniş kartına dair şərtlər**

6.1. Bu Müqavilənin şərtlərini qəbul etməklə, emissiyasına "PAŞA Bank" ASC tərəfindən dəstək verilən kart (kart) sifariş verdiyinizi təsdiq edirsiniz. Tətbiqdə 2024-cü ilin oktyabr ayınadək qeydiyyatdan keçmiş müştərilərə verilmiş kart üzrə bir təqvim ili ərzində aparılan məxaric əməliyyatlarının həcmi 15000 (on beş min) manatdan və ya onun ekvivalentində xarici valyutadan çox ola bilməz. Həmin tarixdən sonrakı dövrdə tətbiqdə qeydiyyatdan keçmiş müştərilərin əldə etdiyi kart üzrə aparılmış məxaric əməliyyatları üçün isə bu bənddə qeyd olunmuş limit mövcud deyildir (tariflərdə qeyd olunmuş limitlər istisna olmaqla).

6.2. Müqavilənin 6.1-ci bəndinə əsasən kart üzrə müəyyən olunan limit tam olaraq istifadə olunduqdan sonra, İstifadəçi Tətbiq vasitəsi ilə, orada göstərilmiş qaydada yeni kart sifariş edə bilər. Yeni kart da bu Müqavilədə qeyd olunan qaydada və şərtlərlə istifadə olunur. Kart yenilənmədiyi halda, ondan istifadə dayandırılır.

6.3. Kart mövcud funksionallığın olub-olmamasından və müvafiq funksionallıq olduqda Sizin seçiminizdən asılı olaraq fiziki və ya rəqəmsal formada emissiya edilə bilər. Fiziki formada emissiya edilmiş Kart ayarlar bölümündə qeyd olunan müddət ərzində Sizə təqdim ediləcək. Rəqəmsal formada emissiya edilmiş Kart qısa müddət ərzində tətbiqdə əks olunur.

6.4. Kart Təchizatçının mülkiyyəti hesab edilir və İstifadəçinin müvəqqəti istifadəsinə verilir.

6.5. Kartın qüvvədə olma müddəti onun üzərində göstərilmiş müvafiq ilin müvafiq ayının sonuncu günü bitir.

6.6. Kart Azərbaycan Respublikasının nağdsız hesablaşmalar haqqında qanunvericiliyinin tələblərinə zidd olan və/və ya sahibkarlıq (kommersiya) məqsədləri üçün istifadə edilə bilməz.

6.7. Kart üzrə texniki overdraft - yəni hesabın məzənnə fərqi və ya digər səbəblərdən mənfi balansa keçməsi halı baş verərsə, bu zaman bu Müqavilədə qeyd olunmuş cərimə faizləri tətbiq oluna bilər.

6.8. Kart üzrə hər hansı məbləğ İstifadəçinin hesabına səhvən köçürüldükdə, o bu barədə dərhal Təchizatçını məlumatlandırmalı və həmin vəsaitdən istifadə etməməlidir.

6.9. Kartdan istifadə şərtləri, tariflər barədə məlumatlar Saytda qeyd olunur və Kartı sifariş edən zaman İstifadəçi bu şərtlərlə tanış olub onları qəbul etmiş olur.

6.10. Kartla nağdsız ödənişə görə Təchizatçı tərəfindən kəşbək (cashback) və/və ya bonus ödənilə bilər. Təchizatçı birtərəfli qaydada kəşbək və/və ya bonus verilməsini dayandıra və ya kəşbək faizini azalda/artıra bilər. Bonus proqramları və kəşbək təşəbbüsləri yalnız Təchizatçının iradəsinə əsaslanır və istənilən vaxt birtərəfli qaydada dəyişdirilə, dayandırıla və ya məhdudlaşdırıla bilər.

6.11. Təchizatçı, kartın (hesabın) təhlükəsizliyi, kartdan dələduzluq məqsədilə və ya səlahiyyəti olmayan şəxs tərəfindən istifadə olunmasının qarşısının alınması və digər risklər baxımından birtərəfli qaydada İstifadəçinin kartını bloklaşdırmaq və ya karta xidmət göstərilməsini dayandırmaq, birdəfəlik, gündəlik, həftəlik və aylıq əməliyyat limitlərini dəyişmək, kartının risk qrupunu dəyişmək və kartın üzərində digər sərəncam vermək hüququna malikdir.

6.12. Təchizatçı, İstifadəçinin kartını səlahiyyətli dövlət orqan(lar)ının qərarı, fırıldaqçılıq hallarının araşdırılması ilə əlaqədar, İstifadəçinin müraciəti əsasında və ya qanunvericilik və/və ya Müqavilədə nəzərdə tutulan digər hallarda da bloklaşdıra bilər. Təchizatçı tərəfindən hər hansı səbəbdən kartın bloklaşdırılması halında kartdan bütün əməliyyatlar tam məhdudlaşdırılır.

6.13. Kartın istifadə müddəti Təchizatçı tərəfindən birtərəfli qaydada uzadıla bilər.

**7. Ödəniş xidmətlərinin icrasına dair şərtlər**

7.1. İstifadəçi, ödəniş sərəncamının verilməsi və icra edilməsi üçün Tətbiqdə qeyd olunan addımları icra etməli və zəruri məlumatları düzgün şəkildə daxil etməlidir.

7.2. Applepay və ya googlepay vasitəsilə ödəniş əməliyyatı istisna olmaqla, İstifadəçi ödəniş əməliyyatları zamanı ona aşkar olan şəkildə əməliyyatı tamamlamağa dair düyməni sıxdıqda (məsələn, "ödəniş et", "köçür", "təsdiq et" və ya bənzər ifadələr), ödəniş əməliyyatı avtorizə edilmiş hesab olunur.

7.3. İstifadəçi ödəniş sisteminə göndərilən ödəniş sərəncamından ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilən anadək istənilən vaxt imtina edə bilər. Dövri ödəniş əməliyyatlarının icrası üzrə verilmiş sərəncamdan imtina

nəticəsində İstifadəçinin seçimindən asılı olaraq, ancaq icra vaxtı çatmış əməliyyat və ya bütün növbəti ödəniş əməliyyatları avtorizə edilməmiş hesab edilir və icra olunmur.

7.4. Tətbiq vasitəsilə göndərilən ödəniş sərəncamı geri götürülməz hesab olunur.

7.5. Ödəniş xidməti təchizatçısı, ödəniş sərəncamı qüsurlu olmadıqda, habelə Müqavilə və Tətbiqdə müəyyən edilmiş bütün şərtlər yerinə yetirildikdə avtorizə edilmiş ödəniş sərəncamını icraya qəbul edir.

7.6. Avtorizə edilmiş ödəniş sərəncamı əməliyyat günündən sonra təqdim olunduqda ödəniş sərəncamı növbəti əməliyyat günü icraya qəbul edilmiş hesab olunur.

7.7. Ödəniş xidməti istifadəçisi Təchizatçı ilə ödəniş sərəncamının icra olunması üçün müəyyən günü razılaşdırdıqda, İstifadəçi ödəniş sərəncamını ən geci razılaşdırılmış gündən əvvəlki iş gününün sonunadək geri götürə bilər.

7.8. Birbaşa debitləşmə alətindən istifadə edildikdə ödəyici ən geci pul vəsaitinin ödəniş hesabından silinməsi üçün müəyyən etdiyi gündən əvvəlki iş gününün sonunadək ödənişin həyata keçirilməsi üzrə verdiyi sərəncamı geri götürə bilər.

7.9. Təchizatçı tərəfindən ödəniş sərəncamının geri götürülməsi üzrə xidmət haqqı nəzərdə tutula bilər. Bu barədə məlumat Saytda öz əksini tapır.

7.10. Təchizatçı ödəniş sərəncamını icraya qəbul etdiyi vaxtdan növbəti iş günündən gec olmayaraq icra etməlidir. Verilən ödəniş sərəncamında həmin sərəncamın icrası üçün fərqli müddət razılaşdırıla bilər. Bu halda, razılaşdırılan müddət ödəniş sərəncamının icra müddəti hesab edilir və həmin gün icra edilir. Bu müddət qeyri-iş gününə düşdükdə, ödəniş sərəncamının icra müddəti növbəti iş günü hesab edilir.

7.11. İstifadəçinin hesabına Ödəniş xidməti təchizatçısına daxil olan pul vəsaiti həmin əməliyyat günü İstifadəçinin ödəniş hesabına mədaxil edilir və/və ya pul vəsaitinin istifadəsinə imkan yaradılır. İstisna olaraq vəsaitin ödəniş terminalları vasitəsilə göndərilməsidir, bu halda qəbul olunmuş pul vəsait 5 (beş) iş günündən artıq olmayan müddətdə İstifadəçinin ödəniş hesabına köçürülür.

7.12. Hesaba mədaxil edilməli olan pul vəsaitinin valyutası hesabda olan məbləğin valyutasından fərqli olduqda pul vəsaiti ödəniş hesabına 5 (beş) iş günü müddətində mədaxil edilir.

7.13. Təchizatçı ödəniş əməliyyatlarının maksimum məbləğini Tətbiqdə qeyd olunan məbləğdə və qaydada müəyyən edir.

7.14. Təchizatçı, qanunda və ya bu Müqavilədə nəzərdə tutulmuş hallarda Tətbiqi bloklaşdırmaq hüququna malikdir.

7.15. Təchizatçı bu Müqavilənin və/və ya qanunvericiliyin tələblərinə uyğun olaraq ödəniş hesabının balansındakı pul vəsaitlərini bloklaşdıra, ödəniş əməliyyatlarının maksimum məbləğini, sayını və növünü məhdudlaşdırmaq və ya digər zəruri tədbirləri tətbiq etməklə, ödəniş hesabında saxlanılan elektron pulların və ya əməliyyatların məbləğinə birtərəfli limitlər tətbiq edə bilər.

7.16. Ödəniş xidməti təchizatçısı İstifadəçi tərəfindən verilən ödəniş sərəncamının icra olunmamasına, səhv icra olunmasına, həmçinin pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsinə görə İstifadəçi qarşısında məsuliyyət daşıyır. Bu halda Təchizatçı səhv icra edilmiş, əsassız olaraq ödəniş hesabından silinmiş ödəniş əməliyyatı üzrə məbləği dərhal İstifadəçinin ödəniş hesabına bərpa edir. Bu halda, ödənilən xidmət haqları da İstifadəçiyə kompensasiya edilir.

7.17. Ödəniş xidməti istifadəçisi icra edilməyən, səhv icra edilən ödəniş əməliyyatlarına və ya pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsinə görə ödəniş xidməti təchizatçısından ödəniş əməliyyatı üzrə məbləğ, xidmət haqqı və digər xərclərdən əlavə, Qanunvericiliyə uyğun olaraq faizlərin ödənilməsini tələb edə bilər.

7.18. Təchizatçı, İstifadəçi tərəfindən ödəniş sərəncamında səhv və ya natamam göstərilmiş məlumatlara görə ödəniş sərəncamının icra edilməməsi və ya səhv icra olunması üçün məsuliyyət daşımır.

7.19. İstifadəçiyə xidmət göstərən ödəniş xidməti təchizatçısı icra edilməmiş, səhv icra edilmiş ödəniş əməliyyatı üzrə və pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsi üzrə İstifadəçinin tələbi əsasında xidmət haqqı tələb etmədən ödəniş əməliyyatının icrasını izləməli və bu haqda İstifadəçini məlumatlandırmalıdır. Bu halda vəsait alana xidmət göstərən ödəniş xidməti təchizatçısı İstifadəçiyə xidmət göstərən ödəniş xidməti təchizatçısına qanunla qadağan olunmayan məlumatları təqdim etməlidir.

7.20. Ödəniş sərəncamı vəsait alan tərəfindən verildikdə ona xidmət göstərən ödəniş xidməti təchizatçısı ödəniş sərəncamının İstifadəçiyə xidmət göstərən ödəniş xidməti təchizatçısına vaxtında və düzgün göndərilməsi üzrə vəsait alan qarşısında cavabdehdir.

7.21. İstifadəçiyə xidmət göstərən ödəniş xidməti təchizatçısı vəsait alana xidmət göstərən ödəniş xidməti təchizatçısı tərəfindən göndərilən ödəniş sərəncamının icra edilməməsinə və ya səhv icra edilməsinə görə məsuliyyət daşıyır. Bu halda, İstifadəçiyə xidmət göstərən ödəniş xidməti təchizatçısı səhv icra edilmiş ödəniş sərəncamı üzrə vəsaitin dərhal İstifadəçinin ödəniş hesabına bərpa edilməsini və ya tələb olunduqda ödəniş sərəncamının düzgün icrasını təmin edir.

7.22. Vəsait alan tərəfindən ödəniş sərəncamı İstifadəçiyə xidmət göstərən ödəniş xidməti təchizatçısına birbaşa təqdim edildikdə ödəniş xidməti təchizatçısı bu Müqavilənin 7.21-ci maddəsinə uyğun olaraq məsuliyyət daşıyır.

7.23. Ödəniş sərəncamı vəsait alan tərəfindən verildikdə, ona xidmət göstərən ödəniş xidməti təchizatçısı icra edilməmiş və ya səhv icra edilmiş ödəniş əməliyyatı üzrə vəsait alanın tələbi əsasında xidmət haqqı tələb etmədən ödəniş əməliyyatının icrasını izləyir və bu haqda vəsait alanı məlumatlandırır.

7.24. Ödəniş əməliyyatının icra edilməsindən əvvəl ödəniş xidmətləri üzrə qanunvericiliklə tələb olunan məlumatlar Təchizatçı tərəfindən saytda daimi olaraq yerləşdirilmişdir.

7.25. Təchizatçı ödəniş sərəncamını icra etdikdən sonra dərhal qanunvericiliklə tələb olunan məlumatları əks etdirən bildirişi Tətbiq vasitəsilə İstifadəçiyə göndərir.

7.26. İstifadəçi ödəniş əməliyyatının icrasından sonra 6 (altı) ay müddətindən gec olmayaraq hər hansı avtorizə edilməmiş və ya səhv icra olunmuş ödəniş əməliyyatlarını müəyyən etdikdə bu barədə Təchizatçını dərhal məlumatlandırmalıdır. Ödəniş xidməti təchizatçısı ödəniş xidməti istifadəçisini ödəniş əməliyyatının icrası haqqında qanunvericiliklə nəzərdə tutulmuş qaydada məlumatlandırmadığı halda bu müddət tətbiq edilmir.

7.27. Təchizatçı avtorizə edilməmiş ödəniş əməliyyatı haqqında İstifadəçinin bildirişi aldıqdan sonra qanunvericiliklə nəzərdə tutulmuş sübutları 5 (beş) iş günündən gec olmayaraq (ödəniş alətləri ilə ölkə xaricində aparılan əməliyyatlarda isə iştirakçısı olduğu ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilmiş müddətdə) təqdim edə bilmədikdə ödəniş əməliyyatının məbləğini İstifadəçiyə növbəti iş günündən gec olmayaraq geri ödəyir.

7.28. Ödəniş xidməti təchizatçısı avtorizə edilməmiş ödəniş əməliyyatının məbləğini bu ödəniş əməliyyatının icrası üçün İstifadəçidən tutulan bütün xidmət haqları ilə birgə İstifadəçiyə geri ödəyir.

7.29. Ödəniş əməliyyatı vasitəçi(üçüncü tərəf) tərəfindən başlanıldığı halda da bu Müqavilənin 7.26-cı maddəsinin tələbləri şamil edilir. Avtorizə edilməmiş ödəniş əməliyyatı vasitəçi tərəfindən başlanıldığı təqdirdə hesaba xidmət göstərən ödəniş xidməti təchizatçısı İstifadəçiyə bu Müqavilənin 7.27-ci maddəsi ilə müəyyən edilmiş qaydada vəsaiti geri qaytarır. Avtorizə edilməmiş ödəniş əməliyyatı üzrə vasitəçinin təqsiri müəyyən edildikdə o, İstifadəçiyə vəsaitin geri qaytarılması ilə bağlı ödəniş xidməti təchizatçısının çəkdiyi xərcləri kompensasiya edir.

7.30. İstifadəçi ödəniş əməliyyatını avtorizə etdiyini inkar etdikdə və ya ödəniş əməliyyatının səhv icra olunduğunu bildirdikdə, ödəniş xidməti təchizatçısı ödəniş əməliyyatının autentifikasiya olunduğunu, düzgün qeydə alındığını, ödəniş əməliyyatı üzrə məbləğin İstifadəçinin müəyyən etdiyi ödəniş hesabına mədaxil edildiyini və ödəniş əməliyyatının texniki nasazlıq və ya ödəniş xidməti təchizatçısının digər nöqsanı nəticəsində təsirə məruz qalmadığını sübuta yetirməlidir.

7.31. Ödəniş əməliyyatı vasitəçi tərəfindən başlanıldığı təqdirdə, vasitəçi ödəniş əməliyyatının autentifikasiya olunduğunu, düzgün qeydə alındığını və ödəniş əməliyyatının onun tərəfindən baş vermiş texniki nasazlıq və ya digər çatışmazlığın təsirinə məruz qalmadığını sübuta yetirməlidir.

7.32. İstifadəçi icra olunmuş ödəniş əməliyyatını avtorizə etdiyini inkar etdikdə, ödəniş alətinin istifadəsi faktı İstifadəçinin ödəniş əməliyyatını avtorizə etməsini və ya onun dələduzluq məqsədilə hərəkət etməsinə şübhə olmasını və ya təhlükəsizliyin qorunması ilə bağlı vəzifələri qəsdən və ya kobud ehtiyatsızlıqdan yerinə yetirmədiyini sübuta yetirmək üçün kifayət deyildir. Bu halda Təchizatçı fırıldaqçılıq əməliyyatının baş verdiyini və İstifadəçi tərəfindən kobud ehtiyatsızlığın olunduğunu təsdiq edən aidiyyəti sübutları İstifadəçiyə təqdim etməlidir.

7.33. Ödəniş xidməti təchizatçısı tərəfindən İstifadəçiyə birbaşa debitləşmə ödəniş alətindən istifadə imkanı yaradılarsa, İstifadəçi birbaşa debitləşmə üzrə ödəniləcək məbləğ limitini müəyyən etməlidir. İstifadəçiyə xidmət edən ödəniş xidməti təchizatçısı vəsait alan tərəfindən verilən ödəniş sərəncamı üzrə istifadəçinin müəyyən etdiyi ödəniş məbləğindən yüksək məbləğdə ödəniş əməliyyatı apardığı təqdirdə artıq ödənilmiş məbləği geri ödəməlidir. İstifadəçi yuxarıda qeyd olunmuş halda vəsaitin onun ödəniş hesabından silindiyi tarixdən 2 (iki) ay müddətində ona xidmət göstərən ödəniş xidməti təchizatçısına müraciət edə bilər. Ödəniş xidməti təchizatçısı ödəniş əməliyyatı üzrə məbləğin geri ödənilməsi barədə istifadəçinin müraciəti daxil olduqdan sonra 5 (beş) iş günü müddətində yuxarıda qeyd olunmuş hala uyğun olaraq artıq ödənilmiş məbləğin geri ödənilməsini təmin etməli və ya imtinanın səbəbləri haqqında əsaslandırılmış məlumatı istifadəçiyə təqdim etməlidir.

7.34. Ödəniş xidmətlərinin icrasıyla bağlı olaraq, Təchizatçı Müştəri ilə bütün əlaqə vasitələri ilə aparılmış danışıqlar və görüntüləri qeydə almaq və texniki qurğuların (cihazların) yaddaşında saxlamaq hüququna malikdir.

7.35. Şübhəli əməliyyat, ehtimal olunan və ya baş verən fırıldaqçılıq hadisəsi və ya təhlükəsizlik təhdidləri zamanı ödəniş xidməti təchizatçısı tərəfindən ödəniş xidməti istifadəçisinin təhlükəsizliyini təmin etmək üçün əməliyyatlara nəzarət edilir və şübhəli hallarda istifadəçiyə zəng, sms və ya digər üsullar vasitəsilə məlumat verilir. Əlavə olaraq, sui-istifadə hallarının baş verməməsi üçün əməliyyatın keçdiyi kart bloklanır və yalnız istifadəçinin təsdiqi ilə blokdan azad olunur.

7.36. Təchizatçı aşağıdakı hallarda İstifadəçinin ödəniş alətini bloklaşdırmaq hüququna malikdir:

- ödəniş alətinin təhlükəsizliyinin təmin olunması;

- ödəniş alətinin dələduzluq məqsədilə və ya səlahiyyətli olmayan şəxs tərəfindən istifadə olunmasının qarşısının alınması;

7.37. Təchizatçı ödəniş alətinin bloklaşdırılması və bunun əsaslandırılmış səbəbi barəsində mümkün olduqda əvvəlcədən və ya ən geci bloklaşdırmadan dərhal sonra İstifadəçini məlumatlandırır, bu şərtlə ki, qanunla belə məlumatın verilməsi qadağan edilməsin.

7.38. Təchizatçı ödəniş alətinin bloklaşdırılmasına səbəb olan hal aradan qalxdıqdan sonra ödəniş alətini blokdan çıxarmalı və ya yeni ödəniş aləti ilə əvəz etməlidir.

## 8. Ödəniş sərəncamının icrası üzrə xidmət haqlarının tutulması

8.1. Təchizatçı, ödəniş əməliyyatının icrası üçün köçürülən məbləğdən və ya ayrıca olaraq əməliyyatın icrası üçün xidmət haqqı tuta bilər. Hər bir əməliyyat üzrə xidmət haqqının məbləği Saytda əks olunur. İstifadəçi ödəniş əməliyyatını təsdiqləməklə bu haqların tutulmasına razılıq vermiş olur.

8.2. Təchizatçı, daxil olan pul vəsaitini İstifadəçinin Ödəniş hesabına mədaxil etməzdən əvvəl köçürülən məbləğdən xidmət haqqı tuta bilər. Bu halda İstifadəçiyə təqdim edilən məlumatda ödəniş əməliyyatının tam məbləği və köçürülən məbləğdən tutulan xidmət haqqı ayrıca qeyd olunacaq.

8.3. Təchizatçı xidmət haqqını İstifadəçinin ödəniş hesabının balansında olan vəsaitlərdən birtərəfli qaydada tuta bilər.

8.4. İstifadəçi anlayır və qəbul edir ki, ödəniş xidmətlərinin göstərilməsiylə əlaqədar Təchizatçının əməkdaşlıq etdiyi digər ödəniş xidməti təchizatçıları da öz növbəsində xidmət haqqı tətbiq edə bilərlər. Təchizatçı bu cür xidmət haqqının növü və məbləği üçün məsuliyyət daşımır.

## 9. Ödəniş xidməti istifadəçisinin ödəniş alətinə və fərdiləşdirilmiş təhlükəsizlik məlumatlarına münasibətdə vəzifələri

9.1. İstifadəçi kartdan və Tətbiqdən ödəniş alətinin emissiya və istifadəsi şərtlərinə uyğun olaraq istifadə etməlidir.

9.2. İstifadəçi Tətbiqdə qeydiyyatdan keçdikdən dərhal sonra özünün fərdiləşdirilmiş təhlükəsizlik məlumatlarının təhlükəsiz saxlanmasını təmin etməlidir. Fərdiləşdirilmiş təhlükəsizlik məlumatlarının üçüncü şəxsin bildiyini aşkar etdikdə dərhal həmin məlumatları tətbiq vasitəsilə dəyişdirməli, bu mümkün olmadıqda isə Təchizatçıya məlumat verməlidir.

9.3. İstifadəçi Tətbiqdə qeydiyyatdan keçərkən təqdim etdiyi məlumatlarda hər hansı dəyişiklik olduqda bu barədə Təchizatçını dərhal məlumatlandırmalı və/və ya mümkün olduqda Tətbiqə müvafiq dəyişikliyi daxil etməlidir,

9.4. İstifadəçi kartın və ya digər ödəniş alətlərinin itirilməsini, oğurlanmasını və ya səlahiyyətli olmayan şəxs tərəfindən istifadə olunmasını müəyyən etdikdə Ödəniş xidməti təchizatçısını günün 24 (iyirmi dörd) saat müddətində fəaliyyət göstərən *3443 və ya +994 12 490 49 43 telefon nömrəsi vasitəsilə dərhal məlumatlandırmalıdır. Həmin əlaqə vasitələri İstifadəçiyə ödəniş alətinin blokdan çıxarılması ilə bağlı Təchizatçıya müraciət etmək imkanı da yaradır. İstifadəçi tərəfindən məlumatların vaxtında verilməməsinə görə, eləcə də yuxarıda göstərilən hallarda kartdan istifadə etməklə aparılan əməliyyatlara görə Təchizatçı məsuliyyət daşımır.

9.5. İstifadəçi təsdiq edir ki, ödəniş xidmətləri üzrə həyata keçirilən əməliyyatlar, təqdim edilən bonuslar, hədiyyələr, imkanlar və bunlarla məhdudlaşmadan hər hansı imtiyaz və üstünlüklərdən (bundan sonra Bonus) istifadə edən və faydalanan zaman heç bir halda sui-istifadəyə yol vermir, vergidən yayınmır, dələduzluq və ya hər hansı cinayətkar məqsədlə istifadə etmir. Təchizatçı, özünün nəzarət mexanizmi ilə istənilən sui-istifadə halını aşkarladığı zaman ödəniş xidmətlərinin göstərilməsini tamamilə və ya qismən dayandıra, tətbiq olunmuş hər hansı Bonusu ləğv edə və ya azalda və ya Müqaviləyə xitam verə bilər.

## 10. Kreditə dair şərtlər

10.1. Təchizatçı, İstifadəçiyə, qanunvericilikdə nəzərdə tutulan qaydada və şərtlərlə kredit xidmətini təklif edə bilər. Kredit məhsulunun şərtləri ayrıca müqaviləylə müəyyən olunaraq imzalanır və bu Müqaviləyə əlavə hesab olunmaqla onun ayrılmaz tərkib hissəsini təşkil edir. Bu bəndin məqsədləri üçün imzalanma dedikdə, elektron imza, analoq imza və ya Tərəflərin razılaşdırdığı bununla məhdudlaşmayan hər hansı təsdiq vasitəsi nəzərdə tutulur.

10.2. Təchizatçı, kredit xidmətini təqdim etməzdən əvvəl İstifadəçinin ödəmə qabiliyyətini və risk profilini qiymətləndirmək hüququna malikdir. Bu məqsədlə əlavə məlumat və sənədlər tələb oluna bilər.

## 11. İstifadəçi təsdiqi

11.1. İstifadəçi bu Müqaviləni təsdiq etməklə ödəniş xidmətlərinin və bu Müqavilədən irəli gələn digər xidmətlərin icrası üçün ona məxsus fərdi məlumatların (şəxsiyyət vəsiqəsi üzrə məlumatlar, iş yeri, əmək haqqı üzrə məlumatlar və s.) müxtəlif məlumat bazalarından (Elektron Hökumət Portalı, SİMA və digərləri) və digər mənbələrdən toplanılmasına, saxlanmasına, işlənilməsinə, verilməsinə və transsərhəd ötürülməsinə razılıq verir.

11.2. İstifadəçi bu Müqaviləni təsdiq etməklə Təchizatçı tərəfindən müxtəlif informasiya ehtiyatlarından əldə edilən, habelə İstifadəçi tərəfindən Təchizatçıya təqdim edilən bütün məlumatların əlavə razılıq alınmadan Təchizatçı tərəfindən analitika, monitorinq, marketinq, ödəniş xidmətləri, İstifadəçiyə göstərilən əlavə xidmətlər və qanunvericilikdə qadağan olunmamış digər məqsədlər üçün təhlil və emal edilməsinə, işlənilməsinə, ümumiləşdirilməsinə, özünün törəmə müəssisələrinə və digər partnyorlarına (müqavilə bağladığı şəxslərə) təqdim edilməsinə, transsərhəd qaydada ötürülməsinə və s. qanunvericiliklə qadağan edilməmiş digər tədbirlərin görülməsinə dair razılıq verir.

11.3. İstifadəçi bu Müqaviləni təsdiq etməklə müxtəlif məhsullara dair kampaniya və reklam xarakterli məlumatların müxtəlif kanallarla (SMS, bildiriş, “whatsapp”, email vasitəsilə və s. elektron formada) Təchizatçı tərəfindən İstifadəçiyə göndərilməsinə razılıq verir.

11.4. Bu Müqaviləni təsdiq etməklə, İstifadəçi qəbul edir və təsdiq edir ki, ödəniş xidmətlərinin (ödəniş alətinin emissiyası və/və ya digər ödəniş xidmətləri) icrasını təmin etmək üçün fərdi məlumatlar və/və ya bank sirrini təşkil edən məlumatlar Təchizatçı tərəfindən “PAŞA Bank” ASC-yə ötürülə bilər.

11.5. Bu Müqaviləni təsdiq etməklə, İstifadəçi qəbul edir və təsdiq edir ki, tətbiqdə qeydiyyatdan keçdiyi (həmin nömrə sonradan dəyişdikdə yeni nömrə) mobil nömrə üzrə məlumatlar (balans, internet paketi, internet balansı və s.) “Azercell Telekom” MMC-dən sorğulanaraq əldə oluna və həmin məlumatlar “akart” tətbiqində yerləşdirilə və görünə bilər.

11.6. İstifadəçi bu Müqaviləni imzalamaqla/təsdiq etməklə təsdiq edir ki, İstifadəçinin bu Müqavilənin 11.1-11.5-ci bəndində qeyd olunmuş razılığı bu Müqavilə xitam olunan tarixədək qüvvədədir və o, razılığın İstifadəçinin yazılı müraciəti əsasında vaxtından əvvəl ləğv edilə bilməsi barədə Təchizatçı tərəfindən məlumatlandırılmışdır.

11.7. İstifadəçi bu Müqaviləni imzalamaqla/təsdiq etməklə razılıq verir ki, bu Müqavilənin 11.1-11.5-ci bəndində qeyd razılıq əsasında əldə edilmiş məlumatların saxlanma müddəti müqavilə müddəti ilə eynidir və müqaviləyə xitam verildikdən sonra, eləcə də razılıq verən şəxsin ölümü halında həmin məlumatlar qanunvericilikdə nəzərdə tutulmuş qaydada arxivləşdiriləcək (ləğv ediləcək).

11.8. Bu Müqaviləni təsdiq etməklə, İstifadəçi qəbul edir və təsdiq edir ki, İstifadəçiyə bu tətbiq üzərindən göstərilən xidmətlərin mahiyyətindən irəli gələrək İstifadəçiyə aid kart məlumatları, kart üzrə aparılan əməliyyatlar barədə məlumatlar “Paşa Bank” ASC tərəfindən Təchizatçıya təqdim edilə bilər.

11.9. Bu Müqaviləni təsdiq etməklə, Siz qəbul edir və təsdiq edirsiz ki, Ödəniş xidmətlərindən istifadə üçün Tətbiqdə və/və ya Saytda qeyd olunan şərt və tariflərlə tanış olub onları qəbul edirsiniz.

11.10. Siz qəbul edir və təsdiq edirsiz ki, heç bir halda Tətbiqə daxil olmaq üçün istifadəçi şifrəsini digər şəxslərə verməyəcəksiz, onlara bu şifrəni əldə etmək və ya digər üsulla Tətbiqə çıxışlarına şərait yaratmayacaqsız.

11.11. Bu Müqaviləni təsdiq etməklə, Siz qəbul edir və təsdiq edirsiniz ki, Tətbiqdən istifadə edərək ödəniş hesabının və/və ya ödəniş kartının açılması və/və ya digər ödəniş xidmətlərindən istifadə üçün müraciət etdiyiniz zaman Təchizatçı tərəfindən aşağıdakıların hər dəfə əldə edilməsinə razılıq verirsiniz:

- SİMA Portalından şəxsiyyət vəsiqəsi (ad, soyad, ata adı və FİN), iş yeri barədə və digər fərdi məlumatla məlumatların sorğulanaraq alınmasına, toplanmasına, işlənməsinə və ödəniş xidmətinin icrası üçün zəruri olduqda kartın emissiya edilməsinə dəstək göstərən banka ötürülməsinə;

11.12. Siz qəbul edir və təsdiq edirsiniz ki, Tətbiqdən istifadə edərək kredit üçün müraciəti etdiyiniz zaman Təchizatçı və/və ya bank tərəfindən aşağıdakıların hər dəfə əldə edilməsinə razılıq verirsiniz:

- “Azərbaycan Kredit Bürosu” MMC-dən (bundan sonra “Kredit Bürosu”) kredit tarixçəniz haqqında məlumatların alınmasına;
- Haqqınızda toplanan məlumatların Kredit Bürosuna təqdim edilməsinə;
- Müvafiq məlumatlarınızın Kredit Bürosu tərəfindən transsərhəd ötürülməsinə;
- Məlumatların “Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununun 11.3. maddəsində nəzərdə tutulmuş hallarda başqa kredit bürosuna ötürülməsinə;
- Məlumatın saxlanma müddəti başa çatdıqdan və ya kredit tarixçəsi subyektinin ölümündən sonra Kredit Bürosu tərəfindən arxivləşdirilməsinə;
- Ödəmə qabiliyyətinizin və borc öhdəlikləriniz üzrə icra intizamınızın Kredit Bürosu tərəfindən qiymətləndirilməsi və

fərdi kredit reytinqlərinin verilməsinə.

11.13. Bu Müqaviləni təsdiq etməklə, Siz qəbul edir və təsdiq edirsiniz ki, Tətbiq vasitəsilə ilə hər hansı xidmət üçün müraciət etdikdə, Təchizatçının və/və ya xidməti icra edən bankın müəyyən etdiyi xidmət haqqı sizin qeyd etdiyiniz (edəcəyiniz) ödəniş hesabından akseptsiz qaydada tutulacaq. Tutulmuş xidmət haqları bu Müqavilədə qeyd olunmuş hallar istisna olmaqla, heç bir halda geri qaytarılmır. Müvafiq hesabda yetərli vəsait olmadığı təqdirdə isə xidmət göstərilməsindən imtina olunur.

11.14. Bu Müqaviləni təsdiq etməklə, Siz qəbul edir və təsdiq edirsiniz ki, yeni Kart sifarişini Tətbiqdə nəzərdə tutulan qaydada və müvafiq təsdiq funksiyasından istifadə edərək icra edəcəksiniz, əks halda Kartınızın istifadəsi dayandırılacaq.

11.15. Bu Müqaviləni təsdiq etməklə, Siz qəbul edir və təsdiq edirsiniz ki, Tətbiq vasitəsilə kredit üçün müraciət edildikdə, onun şərtləri ilə tələb olunan qaydada ayrıca tanış olacaq və şərtləri həmin müqavilədə nəzərdə tutulan imza üsulundan (analoq imza və ya elektron imza və s.) istifadə etməklə qəbul edəcəksiniz, əks halda müraciətiniz ləğv olunacaq.

11.16. Bu Müqaviləni təsdiq etməklə, Siz qəbul edir və təsdiq edirsiniz ki, müqavilələrin, ərizələrin, kartların, digər sərt məlumat daşıyıcılarının və ya alətlərin poçt və/və ya kuryer vasitəsilə sizə çatdırılmasına razılıq verirsiniz.

11.17. Bu Müqaviləni təsdiq etməklə, Siz qəbul edir və təsdiq edirsiniz ki, Təchizatçı tərəfindən hər hansı məhdudiyyətlər tətbiq edilmədiyi halda siz hazırkı Tətbiqin funksionalından və imkanlarından tam şəkildə istifadə edə bilərsiniz.

11.18. Tətbiqə çıxışı seçdikdə, siz bunu öz təşəbbüsünüz və öz riskiniz əsasında edirsiniz və siz bu zaman bütün qüvvədə olan qanunlara, qayda və təlimatlara riayət etməlisiniz.

11.19. Bu Müqaviləni təsdiq etməklə, Siz qəbul edir və təsdiq edirsiniz ki, hazırkı Müqavilə (ona gələcəkdə edilən bütün əlavə və dəyişiklikləri ilə birlikdə) çərçivəsində Sizə Təchizatçı tərəfindən qeyd olunanlardan hər hansı birinin, və ya bir neçəsinin edilməsi yazılı xəbərdarlıq/bildiriş hesab olunur: Saytda yerləşdirilmiş məlumat, Tətbiq üzərindən bildiriş, mobil nömrəyə Pop-up bildiriş, SMS göndərilməsi, zəng edilməsi, elektron poçt ünvanı (e-mail) və ya poçtla göndərilən məktub, "whatsapp" proqramı vasitəsilə mobil nömrənizə bildiriş.

11.20. Bu Müqaviləni təsdiq etməklə, Siz qəbul edir və təsdiq edirsiniz ki, saytda yerləşdirilmiş "Ödəniş xidməti üzrə məlumatlandırma forması" və "Ödəniş sərəncamının icrasından əvvəl ödəniş xidməti istifadəçisinə təqdim olunan məlumatlar"la tanış olub, şərtlərini qəbul etmisiniz.

## 12. PL/TMM, vergidən yayınma ilə mübarizə

12.1. Tərəflər bəyan edirlər ki, onlar cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə və vergidən yayınmaya qarşı mübarizə aparırlar.

12.2. İstifadəçi tətbiq üzərindən apardığı bütün ödəniş əməliyyatlarında istifadə etdiyi pul vəsaitlərinin mənbəyinin qanuni olmasına görə tam məsuliyyət daşıyır və mənbəyinə dair əsaslı şübhələr olan pul vəsaitlərinin İstifadəçinin ödəniş hesabına qəbulu halında, o cümlədən, ödəniş əməliyyatının özü cinayət, terrorçuluğun maliyyələşdirilməsi və ya digər cinayət əməlləri nəticəsində əldə olunmuş pul vəsaitlərinin leqallaşdırılmasına cəhd məqsədilə aparıldıqda və İstifadəçi bunu bildikdə və ya bilməli olduqda və ya İstifadəçinin aparılan ödəniş əməliyyatının məqsədinə dair əsaslı şübhələri olduqda dərhal Təchizatçı və hüquq mühafizə orqanlarını məlumatlandırmağı öhdəsinə götürür.

12.3. İstifadəçi heç bir halda tətbiq üzərindən cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin yuyulmasında və ya buna cəhd edilməsinə, o cümlədən, terrorçuluğun maliyyələşdirilməsində iştirak etməməli, belə hallardan xəbər tutarsa, dərhal Təchizatçıya və hüquq mühafizə orqanlarına məlumat verməlidir.

12.4. İstifadəçi bəyan edir ki, o, tətbiqdən istifadə ilə əlaqədar və ya tətbiq üzərindən Azərbaycan Respublikasında və ya digər ölkələrdə vergi və digər məcburi ödənişləri ödəməkdən yayınmayıb və bundan sonra da yayınmayacaq.

12.5. İstifadəçi tətbiq üzərindən apardığı əməliyyatlar ilə əlaqədar qanunvericiliklə ödəməli olduğu bütün vergilərin ödənilməsi, vergidən yayınma və digər məcburi ödənişlərin həyata keçirilməməsi üçün tam məsuliyyət daşıyır. Təchizatçı yalnız ödəniş xidmətləri təqdim edən ödəniş xidməti təchizatçısıdır və İstifadəçinin vergi və digər məcburi ödənişləri etməsi, o cümlədən, məcburi bəyannamələri və hesabatları qanunvericiliyə uyğun şəkildə dövlət orqanlarına təqdim etməsi üçün hər hansı məsuliyyət daşımır.

12.6. İstifadəçi vergi rezidentliyi ilə bağlı aşağıdakılara riayət etməyi öhdəsinə götürür:

12.6.1. Azərbaycandan kənar hər hansı digər dövlətə aid vergi rezidentliyi olduğu təqdirdə, həmçinin bu Müqavilənin qüvvədə olduğu dövrdə bu hal əmələ gələrsə, bu barədə 5 (beş) iş günü ərzində Təchizatçıya yazılı məlumat verməli və müvafiq sənədləri sonuncuya təqdim etməlidir. Bu hal müəyyən olunarsa İstifadəçi, müvafiq dövlətin qanunvericiliyinə uyğun olaraq vergi rejimi subyekti və İstifadəçinin Təchizatçıdakı hesabları Azərbaycan

Respublikası ilə digər dövlətlər arasında bağlanmış beynəlxalq müqavilələrin tələblərinə uyğun olaraq həmin dövlətə hesabat verilməli hesabı kimi qəbul edilə bilər.

12.6.2. İstifadəçi digər dövlətin vergi rejiminin müvafiq subyekti hesab edilərsə və onun hesabı barəsində hesabat verilməli hesab kimi müəyyən edilərsə, İstifadəçi özünün hesabı və əməliyyatları barədə bütün məlumatların Azərbaycan Respublikası vergi orqanları vasitəsi ilə müvafiq dövlətin səlahiyyətli orqanına ötürülməsi, həmçinin müvafiq dövlətin qanunvericiliyinə əsasən hesabından müvafiq vergilərin tutulmasına tam razılıq verir.

12.6.3. Yuxarıda qeyd olunan hal müəyyən olunarsa, İstifadəçi Təchizatçının yalnız agent funksiyası daşıdığını dərk edir və öz hesabından müvafiq dövlətin səlahiyyətli orqanlarına müvafiq vergilərin ödənilməsi üçün tutulan məbləğlərə və ötürülən məlumatlara dair Təchizatçıya qarşı heç bir etiraz irəli sürmür.

## 13. Tərəflərin məsuliyyəti

13.1. İstifadəçi bununla bəyan edir ki, hesab(lar)dan kommersiya məqsədi ilə istifadə etməyəcək və belə hal baş verərsə yaranacaq vergi məsuliyyətindən xəbərdardır.

13.2. Təchizatçı İstifadəçiyə ödəniş xidməti göstərərkən öz müxbir banklarının və ya digər üçüncü tərəflərin həmin ödənişin icrasını gecikdirməsi və ya digər səbəblərdən məbləğlərin dondurulması üçün İstifadəçi qarşısında heç bir məsuliyyət daşımır.

13.3. İstifadəçinin təqdim etdiyi əlaqə vasitələri (mobil nömrə, elektron poçt ünvanı və s.) düzgün qeyd edilməmişdirsə və ya dəyişikliklər barədə Təchizatçıya yazılı məlumat verilməmişdirsə, bu zaman Təchizatçı, hesab üzrə göstərilən xidmətlərlə və ya ondakı dəyişikliklərlə bağlı məlumatın vaxtında İstifadəçiyə çatdırılmamasına görə heç bir məsuliyyət daşımır.

13.4. İstifadəçi, ödəniş hesabından cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı məqsədlər üçün istifadə etməmək öhdəliyini öz üzərinə götürür və qanunvericilikdə nəzərdə tutulan müvafiq məsuliyyət daşıyır.

13.5. Təchizatçı tərəfindən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı halların qarşısının alınması məqsədilə İstifadəçidən heç bir izah verilmədən və hər hansı bir ödəniş xidmətini icra etmədən əlavə sənədlər və məlumatlar tələb edə bilər.

13.6. İstifadəçinin özünə, rezidenti olduğu və ya hər hansı əlaqəsi olduğu ölkəyə Azərbaycan Respublikası, hər hansı digər dövlət və ya hər hansı Beynəlxalq Təşkilat tərəfindən sanksiya qoyulduqda Təchizatçı İstifadəçinin hesabındakı vəsaiti dondura, əməliyyatların aparılmasına məhdudiyyət qoya və digər hərəkətlər edə bilər.

13.7. İstifadəçi Tətbiqdə qeydiyyat zamanı daxil etdiyi məlumatların tam və düzgün olduğunu, bütün məlumatların onun özünə məxsus olduğunu təsdiq edir. Hər hansı məlumatın səhv daxil edilməsinə və ya ona məxsus olmayan məlumatın daxil edilməsinə və bununla bağlı yarana biləcək bütün risklərə görə məsuliyyət İstifadəçinin üzərinə düşür.

13.8. Mobil telefon SİM-kartının və/və ya mobil cihazının itirilməsi, o cümlədən oğurlanması və digər vasitələrlə İstifadəçinin sahibliyindən çıxması, üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsi nəticəsində ona dəymiş zərərə görə Təchizatçı məsuliyyət daşımır.

13.9. Tətbiq vasitəsilə və ya digər qaydada əməliyyatların aparılması zamanı İstifadəçi tərəfindən rekvizitlərin, məbləğlərin və ya digər məlumatın səhv daxil edilməsinə görə və bunun nəticəsində ona dəymiş zərərə görə Təchizatçı məsuliyyət daşımır.

13.10. Tətbiq vasitəsilə əməliyyatların aparılması və sənədlərin imzalanması zamanı yarana biləcək bütün risklərə görə məsuliyyət İstifadəçinin üzərinə düşür.

13.11. İstifadəçi kartın qanunsuz istifadə edilməsinin qarşısının alınması üçün bütün mümkün tədbirləri görməlidir. Kartın Müştərinin iradəsinə zidd olaraq digər vasitələrlə sahibliyindən çıxması, səlahiyyətli olmayan şəxs tərəfindən istifadə olunmasını müəyyən etdikdə ləngimədən onu bloklaşdırmaq lazımdır və bu barədə Təchizatçıya məlumat verilməlidir.

13.12. İstifadəçi tərəfindən məlumatların vaxtında verilməməsinə görə, eləcə də yuxarıda göstərilən hallarda kartdan istifadə etməklə aparılan əməliyyatlara görə Təchizatçı məsuliyyət daşımır.

13.13. İstifadəçi anlayır və təsdiq edir ki, ödəniş hesabına giriş və istifadə üçün razılıq verib-verməməsindən asılı olmayaraq onun ödəniş hesabından üçüncü şəxslərin istifadəsinə görə tam şəkildə məsuliyyət daşıyır. İstifadəçinin ödəniş hesabına Təchizatçıdan asılı olmayan hallarda səlahiyyətli və ya səlahiyyətsiz şəxslərin girişi nəticəsində İstifadəçiyə dəyən ziyana görə Təchizatçı məsuliyyət daşımır.

13.14. İstifadəçi Müqavilə üzrə öhdəliklərinin bu Müqavilə ilə tələb olunan qaydada icrasına təsir edə biləcək bütün şərait və hadisələr barədə, o cümlədən adı, soyadı, atasının adı, qeydiyyat və faktiki ünvanlarında, mobil nömrəsində, elektron poçt ünvanında və əvvəllər Təchizatçıya təqdim edilmiş istənilən məlumatlarda və/və ya sənədlərdə baş verən dəyişikliklər barədə belə dəyişikliklər baş verdiyi tarixdən 1 (bir) iş günü ərzində Təchizatçıya yazılı məlumat verməlidir. Təchizatçı tərəfindən məlumatların vaxtında verilməməsi nəticəsində yarana biləcək hər hansı mübahisəyə görə Təchizatçı məsuliyyət daşımır və İstifadəçinin ünvanına, mobil telefon nömrəsinə və digər əlaqə vasitələrinə göndərilmiş məlumatlar bütün hallarda İstifadəçiyə göndərilmiş və ona rəsmi qaydada çatdırılmış hesab olunur.

13.15. İstifadəçi fərdiləşdirilmiş təhlükəsizlik məlumatları və digər həssas ödəniş məlumatlarının qorunması üçün məsuliyyət daşıyır.

**14. Müqavilənin qüvvəyə minməsi**

14.1. Müqavilə, İstifadəçinin onu elektron imza (SİMA) ilə təsdiq etdiyi/imzaladığı tarixdən qüvvəyə minir və elektron sənəd mübadiləsi yolu ilə rəsmiləşdirilmiş hesab olunur.

14.2. Müqavilə qeyri-müəyyən müddətə bağlanılır.

**15. Müqaviləyə əlavə və dəyişikliklərin edilməsi**

15.1. Təchizatçı İstifadəçini Müqavilə şərtlərində hər hansı dəyişikliklər haqqında bu dəyişikliklərin tətbiq ediləcəyi tarixdən azı 30 (otuz) gün əvvəl bildiriş göndərməklə məlumatlandırır (daha əlverişli faiz və ya məzənnə dəyişiklikləri istisna olmaqla). Müqaviləyə edilən dəyişikliklər barədə bildiriş İstifadəçiyə elektron formada, o cümlədən Tətbiq daxilində bildiriş (push notification) və ya İstifadəçinin qeydiyyatdan keçmiş elektron poçt ünvanına göndərilməklə və ya Tətbiqə daxil olduqda təqdim olunmaqla çatdırılır. Müqavilənin yenilənmiş mətni Tətbiqdə və/və ya Təchizatçının rəsmi internet səhifəsində yerləşdirilir və daimi olaraq açıq şəkildə əlçatandır.

15.2. Bu müddətdə Ödəniş xidməti istifadəçisi bu dəyişikliklərlə bağlı öz etirazını bildirmədikdə, bu dəyişikliklər Ödəniş xidməti istifadəçisi tərəfindən qəbul olunmuş hesab edilir. İstifadəçi Müqavilə ilə müəyyən olunan əlavə və/və ya dəyişikliklər ilə razı olmadıqda, xidmətin göstərilməsiylə bağlı olaraq Təchizatçı qarşısında mövcud öhdəliklərini (olduğu təqdirdə) icra etməklə müqaviləyə xitam verə bilər.

15.3. Müqavilənin əlavə və/və ya dəyişiklikləri və onun bütün redaksiyaları Təchizatçının Saytında yerləşdirilir və İstifadəçi Müqaviləyə əlavə və/və ya dəyişikliklər ilə tanış olmağı öz öhdəsinə götürür. İstifadəçi, istənilən zaman Müqavilənin bütün mövcud və qüvvədə olmuş əvvəlki versiyaları ilə Təchizatçının saytında tanış ola bilər.

15.4. Müqavilədə istinad olunmuş valyuta mübadiləsi məzənnəsində və bonuslarda edilən dəyişikliklər, habelə daha əlverişli şərtlər xəbərdarlıq müddəti tətbiq edilmədən qüvvəyə minir.

**16. Müqavilənin ləğv edilməsi**

16.1. İstifadəçi 30 (otuz) gün əvvəl Ödəniş xidməti təchizatçısına bildiriş verməklə müqaviləni birtərəfli ləğv edə bilər (təchizatçısının ödəniş xidmətlərinin göstərilməsi üzrə fəaliyyətinə xitam verildiyi hallarda həmin tarixdən).

16.2. Təchizatçı bu Müqavilənin 3.5 və 16.3-cü bəndlərində qeyd olunmuş hallar istisna olmaqla, 30 (otuz) gün əvvəlcədən İstifadəçiyə bildiriş göndərməklə müqaviləni birtərəfli ləğv edə bilər.

16.3. Aşağıdakı hallarda Təchizatçı İstifadəçiyə bildiriş göndərməklə müqaviləyə birtərəfli qaydada dərhal xitam verə bilər:

a. Hesabdan qeyri-leqal məqsədlər üçün istifadə edildikdə;

b. Hesabdan sahibkarlıq (kommersiya) fəaliyyəti ilə bağlı istifadə edildikdə;

c. Hesab üzrə 1 (bir) il ərzində Ödəniş xidmətləri üzrə hər hansı əməliyyat aparılmadıqda;

d. İstifadəçinin eyniləşdirilməsi və verifikasiyası ilə bağlı tələblər yerinə yetirilə bilinmədiyi, İstifadəçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr olduğu və/və ya İstifadəçinin Hesab üzrə apardığı əməliyyatların mahiyyəti və məqsədi barədə məlumatlar əldə etmək mümkün olmadığı hallarda;

e. İstifadəçinin təqdim etdiyi məlumatlarda qeyri-dürüst, təhrif olunmuş və ya ziddiyyətli məlumatlar aşkarlandıqda.Müqavilənin əhəmiyyətli dərəcədə pozulması hesab olunan hər hansı bir müddəasına riayət edilmədiyi təqdirdə;

f. Müqavilənin 3.5-ci bəndində qeyd olunmuş hallarda;

g. Qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda.

16.4. Tətbiqin Cihazdan silinməsi, hazırkı Müqavilənin ləğv edilməsi üçün əsas deyil.

16.5. Müqavilə ləğv edilənədək Ödəniş xidməti istifadəçisi istifadə etdiyi ödəniş xidmətlərinə görə xidmət haqlarını ödəməlidir.

16.6. Bu Müqaviləyə ləğv edildikdə Təchizatçı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq elektron pulun qalıq dəyərini İstifadəçiyə geri ödəyir.

## 17. Məxfilik

17.1. Tətbiqin daxilində digər internet saytlara keçid linkləri ola bilər. Təchizatçı bu cür internet saytlarının məzmununa və məxfilik siyasətinə görə məsuliyyət daşımır, belə ki, həmin saytlar Təchizatçı tərəfindən idarə olunmur. Bu səbəbdən, qeyd edilən internet səhifələrinin Məxfilik Siyasətinin İstifadəçi tərəfindən nəzərdən keçirilməsi zəruridir.

17.2. Təchizatçı, qanunvericiliyə, bu Müqavilənin şərtlərinə və Təchizatçının Məxfilik siyasətinə uyğun olaraq, İstifadəçiyə dair fərdi, məxfi məlumatı toplaya, emal edə, istifadə edə və ya üçüncü tərəflərə ötürə bilər.

17.3. Təchizatçı həmçinin, Tətbiqdən istifadəni asanlaşdırmaq, təkmilləşdirmək və ya daha da keyfiyyətli etmək, həmçinin ünvanlı xidmətlərin təqdim olunması və xidmətlərin daha da təkmilləşdirilməsi üçün Tətbiqdən istifadəyə dair (fərdi məlumat hesab olunmayan) statistik, geolokasiya kimi məlumatları da toplaya, emal edə, istifadə edə və ya üçüncü tərəflərə ötürə bilər.

17.4. Təchizatçı, İstifadəçinin fərdi məlumatlarının məxfiliyini və təhlükəsizliyini təmin etmək məqsədilə qanunvericiliyin və daxili siyasətlərin tələblərinə uyğun texniki və təşkilati tədbirlər həyata keçirir.

17.5. İstifadəçi qanunvericiliklə nəzərdə tutulmuş hallarda fərdi məlumatlarının əldə olunması, düzəldilməsi, məhv edilməsi və onların istifadəsinə dair razılığın geri çağırılması hüququna malikdir. Bu hüquqları həyata keçirmək üçün Təchizatçının Saytında qeyd olunan müraciət kanalları vasitəsilə müraciət edilə bilər.

17.6. İstifadəçi bu Müqaviləni təsdiqləməklə Təchizatçının Saytında yerləşdirilmiş Məxfilik Siyasətinin şərtləri ilə tanış olduğunu və onu qəbul etdiyini təsdiq edir.

## 18. Mülkiyyət hüququ

18.1. Təchizatçı qeydiyyatdan keçib-keçməməsindən asılı olmayaraq, Tətbiqə dair qanunvericiliklə qorunan bütün maraqları, əqli mülkiyyət, sahiblik hüquqlarını və adları, həmçinin Tətbiqin bütün nüsxələrini, o cümlədən Tətbiqlə bağlı olan, lakin bunlarla məhdudlaşmayan, kompüter kodu, sənəd və sənədləşmə, müəllif hüquqları, patentlər, ticarət nişanları, kommersiya sirri, ticarət adları, digər adlar, simvollar, işarələr, ifadələr, konsepsiyalar, ixtiranın xarakteri, obrazın xarakteri, dialoq, ayarlar, süjet xətti, mövzular, animasiya, audiovizual effektlər, səs effektləri, musiqi işləri və iş metodları və sair kimi əqli mülkiyyət ("Nişanlar") üzərində sahiblik hüququnu özündə saxlayır. Tətbiq Azərbaycan Respublikasının müəllif hüquqlarına dair qanunvericiliklə, beynəlxalq müqavilələr, konvensiyalar və bütün dünyada tətbiq edilən digər qanunlar ilə qorunur.

18.2. Bilavasitə Təchizatçı tərəfindən verilmiş yazılı razılıq olmadan (istənilən səbəbdən bu cür razılığın verilməsindən imtina etmək hüququmuz vardır), istənilən nişanı reklamda və ya kommersiya xarakterli istənilən yayımda istifadə etməyə yol verilmir.

## 19. Üçüncü tərəf (kənar) Tətbiq təminatı

19.1. Hazırkı Tətbiq üçüncü tərəfin təmin etdiyi tətbiq təminatını ("Üçüncü tərəf Tətbiq təminatı") daxil etdiyi təqdirdə, Müqavilə ilə Sizə hər hansı bir lisenziya, hüquq, mülkiyyət hüququ və ya digər maraqlar verilmir və ötürülmür. Tətbiq təminatından istifadə etməniz üçün Sizdən sizinlə üçüncü tərəf arasında müqavilə bağlanmaqla Üçüncü tərəf Tətbiq təminatından yararlanmağı tələb edə bilər. Üçüncü tərəfin Tətbiq təminatına dair razılaşmanın şərtləriylə razı olub-olmamaq Sizin ixtiyarınıza buraxılır. Təchizatçı Üçüncü tərəf Tətbiq təminatına dair heç bir bəyanat və ya zəmanət vermir. Siz bununla razılaşır və qəbul edirsiniz ki, Təchizatçı Üçüncü tərəf Tətbiq təminatı ilə bağlı heç bir birbaşa və ya dolayı şikayət, itki və ya ziyana görə məsuliyyət daşımır.

## 20. Yekun müddəalar

20.1. Bu Müqavilə Tərəflər arasında Müqavilənin predmetinə dair bağlanmış bütöv razılaşmanı ifadə edir və bundan əvvəl istər yazılı, istərsə də şifahi formada ifadə edilmiş istənilən və bütün razılaşmaları, bildirişləri, bəyanatları və öhdəlikləri əvəz edir.
20.2. Hazırkı Müqavilənin istənilən müddəası qanuni qüvvədən düşmüş və ya etibarsız sayılarsa, sözügedən müddəa qüvvədə olan qanunvericiliyə uyğun olaraq dəyişdirilən müddəanın məqsədlərinə maksimal dərəcədə yaxın olan müddəa ilə əvəz və şərh ediləcəkdir, Müqavilənin digər müddəaları isə tam hüquqi qüvvəsində qalmaqda davam edəcəkdir.
20.3. Təchizatçı tərəfindən Müqavilədə əks olunan istənilən hüququn həyata keçirilməməsi və ya müdafiə edilməməsi Təchizatçının həmin hüquqdan imtina etməsi anlamına gəlmir.
20.4. Təchizatçı hüquqlarını və öhdəliklərini istənilən vaxt istənilən üçüncü tərəfə sizə öncədən bildiriş göndərmədən ötürə bilər. Lakin sizin hazırkı Müqaviləni yaxud bu Müqavilə ilə bağlı hər hansı bir hüquq və öhdəliklərinizi bizim öncədən verilmiş yazılı razılığımız olmadan ötürməyə hüququnuz yoxdur və hazırkı müddəanın şərtlərini pozaraq istənilən bu cür ötürmə cəhdi etibarsız və hüquqi qüvvəsi olmayan hesab edilir.
20.5. Müqavilənin dilində hər hansı texniki səhvlərin mümkünlüyü yolveriləndir. Bu zaman təkcə Müqavilədəki söz və ifadələrin hərfi mənasını deyil, həm də tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə Müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsi nəzərə alınır.

## 21. Tənzimləyən qanunvericilik və yurisdiksiya

21.1. Hazırkı Müqavilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir və ona uyğun təfsir olunur. Bununla siz Azərbaycan Respublikası məhkəmələrinin qeyri-müstəsna yurisdiksiyasına tabe olursunuz. Hazırkı Müqavilənin istənilən müddəası etibarsız, qanunsuz və ya istənilən şəkildə hüquqi qüvvədən düşmüş hesab edildiyi təqdirdə, sözügedən müddəa hazırkı Müqavilədən ayrılaraq onun qalan bütün müddəalarının etibarlılığına və hüquqi qüvvədə qalmasına təsir etməyəcəkdir.
21.2. Təchizatçı bu Tətbiqi Azərbaycan Respublikasında idarə edir, nəzarətdə saxlayır. Təchizatçı, Azərbaycan Respublikasından fərqli olan istənilən ölkədə Tətbiqin istifadəsinin uyğun və ya əlçatan olacağına dair heç bir bəyanat və ya zəmanət vermir.

## 22. Müraciətlərə baxılması və mübahisələrin həlli

22.1. Ödəniş xidməti təchizatçısı ödəniş xidməti istifadəçisi tərəfindən şikayətin daxil olduğu tarixdən 7 (yeddi) iş günü müddətində müraciətə baxır və nəticəsi barədə ödəniş xidməti istifadəçisini məlumatlandırır.
22.2. Müraciətə baxılması bu müddətdə mümkün olmadığı halda həmin müddətdən gec olmayaraq şikayətə baxılması müddətinin artırılmasının səbəblərini əsaslandırmaqla şikayətə baxılması müddəti barədə ödəniş xidməti istifadəçisinə məlumat verilir.
22.3. Ödəniş xidməti təchizatçısına şikayətin verilməsi ödəniş xidməti istifadəçisinin məhkəməyə şikayət vermək hüququnu məhdudlaşdırmır.
22.4. Bu Müqavilə üzrə Tərəflər arasında yaranan bütün mübahisələr danışıqlar yolu ilə həll olunur. Danışıqlar nəticəsində tərəflər qarşılıqlı razılaşma əldə etmədikdə mübahisə qanunvericiliklə müəyyən olunmuş qaydada (Azərbaycan Respublikasının səlahiyyətli məhkəmələrində və ya notariusun icra qeydi formasında və ya digər qaydada) həll edilir.

## 23. Əlaqə məlumatları

23.1. Tətbiqə və ya hazırkı Müqaviləyə dair hər hansı bir sualınızın yaranacağı, şərhə ehtiyacınız olacağı, yaxud müraciət və şikayətlərin edilməsi üçün Təchizatçı ilə ilə speak-up@akart.az elektron poçt ünvanı, *3443 və ya +994 12 490 49 43 telefon nömrəsi və/və ya AZ1122, Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, ev 149 ünvanı ilə poçt vasitəsilə əlaqə saxlaya bilərsiniz.
23.2. Ödəniş xidmətləri və sistemləri üzərində nəzarət funksiyasını Azərbaycan Respublikasının Mərkəzi Bankı həyata keçirir (Qaynar xətt: +99412 966, telefon nömrəsi: +99412 4935058).